

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 223 (21.633)

25 noyabr 2016-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Elmi-nəzəri konfrans keçirilib



*Naxçıvan Dövlət Universitetində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il iyulun 27-də imzaladığı "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncama əsasən, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə elmi-nəzəri konfrans keçirilib.*

Konfransı giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov hazırkı dövrdə Azərbaycan gənclərinin hərbi-vətənpərvərlik tərbiyəsi məsələsinin mühüm əhəmiyyət kəsb etdiyini və bu mənada, gənc nəsli psixoloji, mənəvi baxımdan hərbi həyata hazırlamağın vacibliyini qeyd edib.

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-mayor Səxavət Salmanov "Gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyə edilməsi" mövzusunda məruzə edib. Qeyd olunub ki, bu gün Azərbaycanın güclü və qüdrətli ordusu var. Son illərdə orduya ayrılan xərclər, ordu quruculuğu sahəsində görülən işlər, hərbi sənaye kompleksinin inkişaf etdirilməsi, ordunun müasir silahlarla komplektləşdirilməsi bunu deməyə əsas verir. Səxavət Salmanov onu da bildirib ki, görülən bu işlər çağırışyaşlı gənclərin hərbi hissələrdə nümunəvi xidmətinə imkan verib.

Xidmətin əməkdaşı, kapitan Elşən Babayev "Naxçıvan Muxtar Respublikasında çağırış kampaniyalarının keçirilməsi" adlı məruzəsində müstəqil Azərbaycanda nizami ordu quruculuğunun müəllifi olan ümummilli lider Heydər Əliyevin ideyaları əsasında görülən işlərdən, Naxçıvan Muxtar Respublikasında hərbi xidmətə çağırış kampaniyasının yüksək səviyyədə təşkilindən danışıb.

Xidmətin əməkdaşı, kapitan Vüsal Əliyev "Həqiqi hərbi xidmətin növləri" adlı məruzəsində qeyd edib ki, Azərbaycan Respublikasında çağırışaqədər yaş həddində olan vətəndaşların müddətli həqiqi hərbi xidmətə çağırılması hərbi vəzifə və hərbi xidmət haqqında Azərbaycan Respublikasının 2011-ci il 23 dekabr tarixli Qanununa əsasən həyata keçirilir və respublikanın müdafiə siyasəti ölkəmizin hərbi və digər sahələrində maraqlarının təmin olunmasına yönəlib. Milli təhlükəsizlik siyasətinin həyata keçirilməsində həlledici rol isə dövlətin Silahlı Qüvvələrinə məxsusdur.

Universitetin Çağırışaqədərki hazırlıq və mülki müdafiə kafedrasının müəllimi Vidadi Salmanov "Azərbaycan hərbi qanunvericiliyi və onun vəzifələri" adlı məruzəsində əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dövlətçilik prinsip və ənənələrinin qorunması naminə həyata keçirilən zəruri tədbirlərdən danışaraq bildirib ki, ölkə başçısı cənab İlham Əliyevin müvafiq Sərəncamına əsasən, 8 iyun 2010-cu il tarixdə təsdiq olunmuş, dövlətin, cəmiyyətin maraqlarını əks etdirən milli təhlükəsizlik konsepsiyasının tərkib hissəsi olan, hərbi siyasətin əsaslarını müəyyənləşdirən strateji əhəmiyyətli sənəd – Azərbaycan Respublikasının Hərbi Doktrinasının qəbulu ölkənin beynəlxalq aləmdə imicinin formalaşması istiqamətində atılan vacib və təxirəsalınmaz bir addımdır.

Sonda tələbələrin sualları cavablandırılıb.

**Nərmin CABBAROVA**

*Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin nəzdində fəaliyyət göstərən "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyət tərəfindən ərzaq mallarının keyfiyyətinə nəzarət diqqət mərkəzində saxlanılır. Ötən illər ərzində cəmiyyətin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilib, ABŞ, Almaniya, İngiltərə, Polşa, İtaliya, Türkiyə istehsalı olan, beynəlxalq standartlara uyğun laboratoriya avadanlıqları alınıb quraşdırılıb. Laboratoriyada mütəmadi olaraq yerli və idxal məhsullarından nümunələr götürülərək təhlillər aparılıb.*

## İstehlak mallarının ekspertizası beynəlxalq standartlara uyğun şəkildə aparılır

Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində aparılan dövlət nəzarətinin bir hissəsini də yerli istehsal və idxal məhsullarının orqanoleptik, fiziki-kimyəvi, mikrobioloji və toksikoloji göstəricilərinin yoxlanması təşkil edir.

"İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətindən aldığımız məlumata görə, 2016-cı ilin ilk 10 ayı ərzində 879 halda hüquqi və 1224 halda fiziki şəxslər tərəfindən daxil olmuş 121 mal çeşidini əhatə edən 2103 halda mal nümunəsi laboratoriya analizindən keçirilib və 2375 halda səyyari laboratoriya təhlilləri aparılıb. Aparılmış laboratoriya təhlilləri 1480 yerli istehsal və 623 idxal məhsulunu əhatə edib. Nəticədə, 2085 halda məhsulun keyfiyyət göstəricilərinin normativ-texniki sənədlərin tələblərinə cavab verdiyi, 18 halda mal nümunəsinin keyfiyyət göstəricilərinin aşağı olduğu müəyyən edilib. Məhsulların keyfiyyətində yaranmış nöqsanların aradan qaldırılması üçün qanunvericiliyə uyğun müvafiq tədbirlər görülüb.



Bundan əlavə, qeyd olunan dövrdə "Gəmiqaya Holdinq" Şirkətlər İttifaqına 6225,58 ton sement, 8,51 ton travertin və mərmər, 12044,041 ton mebel dəsti, 1,365 ton döşək, 49,6 ton gips məmulatı, 74,678 ton astar suvaq məhsulu, 2820,685 ton məsaməli beton və 7325,58 ton sement istehsalı üçün klinker yarımfabrikatı məhsullarının Gürcüstan, Türkiyə və İrana ixracı üçün 61 halda, "Təchizat" Açıqtipli Səhmdar Cəmiyyətinə 357,258 ton iribuynuzlu heyvan dərisinin Türkiyə Respublikasına ixracı üçün 12 halda, "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinə qablaşdırılmış bitki çayları, alkoqollu içkilər və mürəbbə məhsullarının Yaponiyada keçiriləcək sərgiyə aparılması üçün 15 halda, "Naxçıvan Avtomobil Zavodu" Məhdud Məsuliyyətli Cəmiyyətinə Belarus Respublikasına ixrac edilmiş 3 ədəd avtomobilə 1 halda, Babək "Sirab" Açıq Səhmdar Cəmiyyətinə 100 min 256 litr "Sirab" mineral sularının Türkiyə Respublikasına ixracı üçün 5 halda, "Ləzzət Biskvit Şokolad Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyətinə 49,0085 ton vafli məhsulunun Gürcüstana ixracı üçün 2 halda, "Babək Şərab-2 Yeddilər ASK" Məhdud Məsuliyyətli Cəmiyyətinə 1402,4 litr meyvə araqlarının Bakı şəhərindəki beynəlxalq hava limanından ixracı üçün 2 halda olmaqla, cəmi 98 halda mənşə sertifikatı verilib.

Məlumatda bildirilir ki, "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Mərkəzi qida sınaq laboratoriyasının İSO 17025 standartı üzrə beynəlxalq akkreditasiyasının aparılması üçün Latviya Respublikasının beynəlxalq akkreditasiya orqanı olan LATAK-la müqavilənin bağlanması təmin edilib. Bağlanmış müqaviləyə əsasən, "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Mərkəzi qida sınaq laboratoriyasının İSO 17025 standartı üzrə beynəlxalq akkreditasiyası istiqamətində yekun audit yoxlamaları keçirilib, LATAK-T- 492-00-2014 nömrəsi ilə qeydiyyata alınıb və ISO/IEC 17025:2005 standartı üzrə akkreditasiya sertifikatlaşdırılıb.

Cari ilin 24-25 noyabr tarixlərində isə mərkəzdə LATAK ekspertləri tərəfindən 2016-cı ilin İSO 17025 standartı üzrə audit yoxlamalarına başlanılıb. Hər il keçirilən audit yoxlamalarında əsas məqsəd standartların tələblərinə uyğun analizlərin, sənədləşmə işlərinin düzgün aparılması və mütəxəssislərin hazırlıq səviyyəsinin yoxlanılmasıdır.

Laboratoriya əməkdaşlarına mütəmadi olaraq İSO 17025 standartı üzrə ixtisasartırma kurslarının keçirilməsi də diqqət mərkəzində saxlanılır. Belə ki, hazırda "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Mərkəzi qida sınaq laboratoriyasında kimyəvi və mikrobioloji laboratoriya təhlilləri üzrə Türkiyə Respublikasının "KarmaLab" şirkətindən dəvət olunmuş mütəxəssislər tərəfindən təkmilləşdirmə kursları keçirilir. 2016-cı ilin 19-25 noyabr tarixlərində keçirilən kurslar bu gün başa çatır. Sonda laboratoriya əməkdaşlarına sertifikatlar təqdim olunacaq.

Qeyd edək ki, muxtar respublikada ilk beynəlxalq akkreditasiyalı laboratoriya olan "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Mərkəzi qida sınaq laboratoriyası regionumuzda istehsal edilən və ya muxtar respublikaya idxal olunan qida məhsullarının beynəlxalq tələblərə uyğun yoxlanılmasını təmin edir, istehsalçı müəssisələrin xarici ölkələrə məhsul ixracını asanlaşdırır.

**Xəbərlər şöbəsi**

## Elektron məlumat bankına uşaqlar haqqında məlumatlar daxil edilməkdədir

Muxtar respublikada son illər uşaqlarla bağlı həyata keçirilən tədbirlər, görülən işlər sağlam gələcəyin formalaşmasına xidmət edir. Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının yaradılması da bu istiqamətdə görülən işlərin davamıdır. Çünki informasiya-kommunikasiya texnologiyalarının yaratdığı imkanlardan istifadə edib uşaqlarla bağlı məlumatları elektronlaşdırmaqla uşaq hüquqlarının daha operativ müdafiəsinə, aidiyyəti orqanların bu sahə ilə bağlı səmərəli fəaliyyətinə, hər bir uşaq haqqında informasiyaların asanlıqla əldə edilməsinə nail olmaq mümkündür. Bu amillər nəzərə alınaraq muxtar respublikada uşaqların qanunla müəyyən edilmiş hüquqlarının və mənafelərinin qorunması, uşaq hüquqlarının təmin edilməsi üçün əlverişli mühitin yaradılması, uşaq hüquqlarının pozulmasına səbəb olan halların aradan qaldırılması və səbəb ola biləcək halların qarşısının alınması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 24 may tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nda uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının fəaliyyətinin təmin edilməsi ayrıca müddəa kimi göstərilib.

Müvafiq sənəddən irəli gələn məsələləri həll etmək üçün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2013-cü il 23 yanvar tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası" təsdiq edilib. Cari ilin fevral ayında Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində muxtar respublikada uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankı yaradılıb. Məlumat bankına müvafiq məlumatları daxil edəcək mərkəzi və yerli icra hakimiyyəti orqanlarının məsul şəxsləri üçün seminar keçirilib.

Elektron məlumat bankının istifadəçiləri Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiya, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Daxili İşlər, Ədliyyə, Təhsil, Səhiyyə, Gənclər və İdman, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri, Dövlət Sosial Müdafiə Fondu, Dövlət Miqrasiya Xidməti, yerli icra hakimiyyətinin qəyyumluq və himayə orqanlarıdır.

Uşaqlar haqqında məlumat bazası elektron məlumat bankının mərkəzi serverində yerləşir və bura hər bir uşaq barədə fərdi məlumatlar daxil edilir. Elektron məlumat bankına uşaq barəsində məlumatlar daxil edən mərkəzi və yerli icra hakimiyyəti orqanları yalnız müəyyən olunmuş formaya uyğun elektron anketin öz səlahiyyətlərinə aid hissələri üzrə bəndləri doldururlar. Elektron məlumat bankının idarə olunmasına, bura məlumatların yerləşdirilməsinə və ondan istifadəyə nəzarəti administrator həyata keçirir.

Bu günədək elektron məlumat bankına 4242 uşaq haqqında fərdi məlumatlar daxil edilib. Məlumat üçün bildiririk ki, ötən müddət ərzində fərdi qaydada uşaq hüquqları haqqında məlumat bankında uşaqların adı, soyadı və atasının adı, doğulduğu tarix, doğumunun qeydiyyata alındığı yer, yaşadığı ünvan, şəxsiyyət vəsiqəsinin və ya doğum haqqında şəhadətnaməsinin seriya və nömrəsi, ata və anasının yaşadığı ünvan və vətəndaşlıq vəziyyətləri, doğum və ölüm tarixləri, valideynlərinin nikah vəziyyəti ilə bağlı məlumatlar yerləşdirilib. Bundan əlavə, uşaqların qeydiyyatda olduğu səhiyyə və təhsil aldığı müəssisələr, sağlamlıq tarixçəsi, müalicə aldığı səhiyyə müəssisəsi, xüsusi təhsil və idman nailiyyətləri, uşaqlara təyin edilmiş əmək pensiyası və yaxud sosial müavinətlər, ünvanlı sosial yardım təyin edilmişdirsə, məbləği və verilmə müddəti kimi məlumatlar da uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankında yerləşdirilib.

Elektron məlumat bankına uşaqlar haqqında məlumatların daxil edilməsi və onların təhlili davam etdirilməkdədir.

**Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti**

# Naxçıvan Avtomobil Zavodu fəaliyyətini genişləndirir

## *Zavodda premium sinfə aid olan "NAZ-Lifan-820" modelinin istehsalına başlanılıb*

Mobil telefonuma gələn zəng məni işdən ayırdı. Yaxın dostum Mahir idi.

– Səsini eşidək, ay Mahir. Nə yaxşı bizi yada salmısan?

– Bir dostumun səhhətində problem yaranıb. İnternetdən öyrənib ki, Culfada yerləşən Darıdağ Arsenli Su Müalicəxanasında müalicəsi mümkündür.

– Bəs nə vaxt gələcəksiniz?

– Gəlmişik, Bakıdayıq. Sabah Naxçıvana gələcəyik.

– Çıxıb qarşılayacağam, – deyib xudahafizləşdik.

Ertəsi gün onları Naxçıvan Beynəlxalq Hava Limanında qarşıladım. Elə çıxış qapısındaca dayanıb nəfəsini dərdi. Uzaqdan şəhəri seyr etdi. Ətrafda yaradılan səliqə-sahmana işarə edərək:

– Naxçıvan cənnətməkana dönüb, – dedi.

Sonra da dayanacaqda sıra ilə düzülmüş taksiləri göstərərək:

– Bu avtomobillər, yəqin ki, Fransa istehsalıdır, – deyə soruşdu.

– Xeyr. Naxçıvan istehsalıdır. "NAZ-Lifan" markalı avtomobillərdir.

– Naxçıvanda avtomobil istehsal olunur? – deyə təəccüblə soruşdu.

– Əlbəttə, Naxçıvan sən görən 90-cı illərin Naxçıvanı deyil. Büsbütün dəyişib, inkişaf edib. İndi sən soruş, Naxçıvanda nə istehsal olunmur? Sabah gəzərik, özün də şahidi olarsan. Buyurun, gedək, – deyib qonaqları maşına dəvət etdim. Elə bu vaxt Mahir dayanıb xeyli güldü. Yanındakı qonağı göstərərək:

– Soruşur ki, bu taksi sürücüləri digər şəhərlərdə gördüyümüz kimi müştəri tapmaq üçün qarşımıza niyə çıxmadılar?

– Burada qayda belədir. Taksi sürücüsü müştəriyə yox, müştəri münasib bildiyi taksiyə yaxınlaşır. Onların göstərdiyi xidmətə də söz ola bilməz.

– Onda müalicəxanaya gedib-gəlmək üçün bu taksilərin xidmətindən istifadə edək.

– Mən özüm sizə xidmət edərəm, – deyib israr etdim.

– Yox, sən işində ol. Bizə görə narahat olma, – dedi.

– Onda gərək üzərində 5 rəqəmi yazılmış taksilərə yaxınlaşaq, – dedim.

– Niyə?

– Ona görə ki, 5 rəqəmi ilə işarələnmiş taksilər Culfa istiqamətində taksi xidməti göstərirlər.

– Maraqlıdır, – deyən Mahirlə taksilərə yaxınlaşdıq. Mahir maşınlardan birinə əyləşib, o tərəf, bu tərəfə döndü. – Rahatdır, – dedi. Sonra da sürücünü söhbətə tutdu:

– Neçə ilin maşınıdır, keyfiyyəti necədir?

– Maşınımızın keyfiyyətinə söz ola bilməz. Naxçıvan-Culfa istiqamətində gündəlik olaraq sərnişindaşıma xidməti ilə məşğul oluram. Deyərdim ki, hər hansı bir avtomobilin keyfiyyətini yoxlamaq, ona zəmanət vermək istəyiriksə, həmin avtomobillə taksi xidməti göstərilsin. Onda həmin avtomobilin keyfiyyəti haqqında söz demək olar. Bu mənada, "NAZ-Lifan" sınaqdan çıxmış avtomobillər sırasındadır. Beş ildir ki, bu avtomobillə taksi xidməti göstərirəm. 900 min kilometrdən artıq məsafə qət etmişəm. Heç bir problem yaranmayıb. Əvvəllər deyərdilər: xaricdə istehsal olunan avtomobillərin yağını, benzinini tök, sür. İndi bu deyim "NAZ-Lifan" markalı avtomobillərə aiddir. Keyfiyyətinə və rahatlığına söz ola bilməz. Buyurun, özünüz də bunun şahidi olun.

Beləcə, düz on gün Mahir və xaricdən gələn qonaqları "NAZ-Lifan"ın xidmətlərindən istifadə etdilər. Sonra da sürücünün sözlərinə şərik çıxdılar:

– Doğrudan da, "NAZ-Lifan" markalı minik avtomobilinin rahatlığına və göstərilən xidmətə söz ola bilməz, – deyib razılıqlarını bildirdilər.

Hər gün muxtar respublikamıza gələn yüzlərlə xarici turistə xidmət göstərən bu avtomobilləri istehsal edən zavodda hansı yeniliklər var? – deyə üz tutduq Naxçıvan Avtomobil Zavoduna. İstehsal sahəsi, satış salonu, anbar və inzibati binadan ibarət olan zavodun 2472 kvadratmetrlik ərazisində Almaniya, İtaliya və Belçikadan gətirilmiş müasir texnoloji avadanlıqlar quraşdırılıb.

Müəssisədə yığım sexi, anbar yaradılıb, yük boşaldılması üçün platforma, sınaq yolu və sınaq avadanlıqları quraşdırılıb.

Zavodun direktoru Musa Abdullayev oxucularımızı maraqlandıran sualları cavablandırdı, istehsal müəssisəsinin fəaliyyəti barədə ətraflı məlumat verdi.

*– İstehsal prosesinin təkmilləşdirilməsi, "NAZ-Lifan" markalı avtomobillərin yeni modellərinin istehlakçılara təqdim olunması sahəsində görülən işlər barədə oxucularımıza məlumat verməyinizi xahiş edirik.*

– İstehsal prosesi konveyer üsulu ilə təşkil edilən müəssisədə "NAZ-Lifan" markası ilə istehsal olunan avtomobillər ilk vaxtlar baqaj hissəsi salonda olan (xetçbek) "320" və baqaj bölməsi salondan kənarda yerləşən (sedan) "620" modellərindən ibarət idi. Bu avtomobillər ayrı-ayrı hissələrdən yığılıb sınaq meydançasına çıxarılırdı. Burada 2011-ci ildə yeni "NAZ-Lifan X-60" modelinin istehsalı üçün konveyer xəttində müəyyən dəyişikliklər aparılıb, 2012-ci ilin yanvar ayından etibarən isə "NAZ-Lifan X-60" modelinin kütləvi istehsalına başlanılıb. Həmçinin müəssisəyə təcrübə-sınaq məqsədilə 2012-ci ilin sonunda kiçik partiyada 6 nəfərlik mikroavtobus və 800 kiloqram yükgötürən avtomobillərin hissələri idxal olunub.



Artıq "NAZ-Lifan" markalı 6 nəfərlik mikroavtobusun "LF-6401" modeli, 800 kiloqram yükgötürən furqonlu avtomobilin "LF-5028" modeli və 800 kiloqram yükgötürən bortlu yük avtomobilinin "LF-1022" modeli satışa çıxarılıb. Məqsəd bazarı öyrənmək və gələcəkdə tələbat olarsa, kütləvi istehsala başlamaqdır. Bu istiqamətdə işlər uğurla davam etdirilib, 2013-cü ilin oktyabr ayında "NAZ-Lifan-620" model avtomobillər avtomatik sürət qutusu ilə təchiz edilərək satışa çıxarılıb. 2014-cü ildən isə "NAZ-Lifan" markalı avtomobillərin "330", "630" və "720" modeli istehlakçılara təqdim olunub. 2010-cu ilin yanvar ayından fəaliyyətə başlayan Naxçıvan Avtomobil Zavodu hər il alıcılar qarşısına yeni modellərdə avtomobillərlə çıxıb. Bu günə qədər 5 minə yaxın avtomobil istehsal olunub. Bu il də ənənəyə sadiq qalaraq premium sinfə aid olan istər texniki göstəriciləri, istərsə də keyfiyyət baxımından daha komfortlu "NAZ-Lifan-820" modelinin kütləvi istehsalına başlanılıb ki, bu da alıcılar tərəfindən maraqla qarşılanıb. Dəyəri 32 min 500 manat qiymətləndirilən "NAZ-Lifan-820" modeli də daxil olmaqla, müəssisədə istehsal olunan bütün avtomobillərə bu ildən etibarən mühərrik və sürət qutusunun keyfiyyəti əvvəlkindən fərqli olaraq 100 min kilometr və ya 3 il zəmanət verilir, avtomobillərin satışı nağd və ya sərfəli kredit şərtləri ilə aparılır.

*– Müasir texnoloji avadanlıqlar işin bir tərəfidirsə, onları idarə edəcək mütəxəssislərin yetişdirilməsi də bu işi tamamlayan başqa bir tərəfidir. Bu sahədə hansı işlər görülüb?*

– Müəssisədə 8 modeldə "NAZ-Lifan" markalı minik avtomobilləri istehsal edilir. İllik istehsal gücü 4-5 min ədəd minik avtomobili olan Naxçıvan Avtomobil Zavodu Azərbaycanda yeganə müəssisədir ki, avtomobillərin bütün hissələri burada yığılır. Bu da zavodda istənilən modeldə minik və yük avtomobillərinin istehsalına imkan verir.

İstehsal olunan avtomobillər Nəzarət şöbəsindən keçdikdən sonra satışa buraxılır. Zavod fəaliyyətə başlayan zaman ilkin mərhələdə istehsal prosesi xarici mütəxəssislər tərəfindən aparılırdısa, hazırda bu iş yerli mütəxəssislər tərəfindən həyata keçirilir.

*– "NAZ-Lifan"ın daha münasib qiymətə satışı ilə bağlı hansı layihələr həyata keçirilir?*

– Avtomobil Zavodunun fəaliyyətə başladığı dövrdən ötən müddət "NAZ-Lifan" markalı minik avtomobillərinin tanıdılması və sınaqdan çıxarılması mərhələsi olub. Hazırda istehsal olunan maşınların daha münasib qiymətə istehlakçılara təqdim edilməsi ilə əlaqədar layihələr hazırlanır. Müəssisədə möhürləmə, qaynaq və boyama sahələrinin yaradılması istiqamətində işlər davam etdirilir. Bu isə ban hissələrinin sökülü vəziyyətdə gətirilməklə müəssisədə qaynaq olunmasına imkan verəcək. Hesablamalara görə, 1 konteynerə orta hesabla 6 avtomobil banı yerləşirsə, sökülü vəziyyətdə 150-200 avtomobil banı yerləşir ki, bu da daşınma xərcinin azalması deməkdir. İstehsal olunan avtomobillərin milliləşdirilməsi planlaşdırılır. Bunun üçün avtomobil hissələrinin 51 faizinin ölkəmizdə istehsal olunması şərtdir. Bu məqsədlə avtomobilin müəyyən hissələrinin ölkəmizdə, o cümlədən Naxçıvanda istehsal edilməsi nəzərdə tutulur.

Xaricdə istehsal olunan avtomobillərdən daha münasib qiymətə satışa çıxarılan "NAZ-Lifan" markalı minik avtomobillərinə tələbat ildən-ilə artır. Bu isə onu göstərir ki, "NAZ-Lifan" markalı minik avtomobilləri maşın bazarında artıq özünəməxsus yerə malikdir. Sevindirici haldır ki, yerli istehsala önəm verilir, Naxçıvanda ayrı-ayrı idarə, müəssisə və təşkilatlarda "NAZ-Lifan"lardan xidməti avtomobillər kimi istifadə olunur. İstər Sovetlər Birliyi dövründə Böyük Vətən müharibəsində və Çernobıl hadisələrinin nəticələrinin aradan qaldırılmasında iştirak edən şəxslər, istərsə də Azərbaycan Vətən Müharibəsi iştirakçıları dövlət vəsaiti hesabına "NAZ-Lifan-320" markalı minik avtomobilləri ilə təmin edilir. Naxçıvan Avtomobil Zavodunda istehsal olunan avtomobillər ölkəmizin digər regionlarında da istehlakçılar tərəfindən rəğbətlə qarşılanır. Hazırda muxtar respublikamızda, Bakı, Sumqayıt, Gəncə, Neftçala, Xaçmaz və Quba şəhərlərində "NAZ-Lifan" markalı minik avtomobilləri ilə taksi xidməti göstərilir.

***Biz də keyfiyyətli məhsulları ilə istehlakçıların rəğbətini qazanan kollektivə uğurlar arzulayıb, redaksiyamızın "NAZ-Lifan-320" markalı xidməti avtomobilinə əyləşib Naxçıvan Avtomobil Zavodunda gördüklərimizi oxucularımıza çatdırmaq üçün üz tutduq redaksiyaya.***

**Kərəm HƏSƏNOV**

# Kənd təsərrüfatının sığortası diqqət mərkəzindədir

***Sığorta iqtisadiyyatın digər sahələrində olduğu kimi, kənd təsərrüfatında da mühüm rol oynayır. Əmlakı və məhsulu gözlənilməz hadisələrə qarşı sığorta etdirmək fermer və torpaq mülkiyyətçiləri üçün böyük əhəmiyyət daşıyır. Belə ki, kənd təsərrüfatında tətbiq olunan sığorta bitkiçilik və heyvandarlıqda müxtəlif riskli hadisələr nəticəsində dəymiş zərərlərin ödənilməsində çox faydalıdır.***

Kənd təsərrüfatı mühüm fəaliyyət sahəsidir. Torpaq, iqlim, hava və su ehtiyatlarından istifadə olunması hər bir ölkədə müxtəlif məhsulların istehsalına imkan yaradır. Lakin bununla yanaşı, kənd təsərrüfatı müxtəlif gözlənilməz hadisələrə qarşı həssasdır. Belə ki, təbii hadisələr nəticəsində tez-tez bu sahəyə zərərlər dəyir. Ona görə də əhalinin yerli kənd təsərrüfatı məhsulları ilə təmin olunması məqsədilə fermer və torpaq mülkiyyətçilərinin əmlakına və hazır məhsuluna zərər vuran müxtəlif gözlənilməz hadisələrə qarşı sığorta olunmaq vacib məsələdir.

Kənd təsərrüfatında sığortanın təşkili və onun fəaliyyətinin stimullaşdırılması dövlətin daim diqqət mərkəzindədir. Bu məqsədlə təbii hadisələrdən kənd təsərrüfatı məhsullarının sığortalanması üçün müvafiq qanunlar və qərarlar qəbul olunmuşdur. Həmin qanunlara əsasən, kənd təsərrüfatı bitkilərinin məhsulları, kənd təsərrüfatı heyvanları, ev quşları, arı ailələri, habelə kənd təsərrüfatı təyinatlı binalar, tikililər, qurğular, avadanlıqlar, maşınlar, nəqliyyat vasitələri və digərləri ilə bağlı əmlak mənafeləri sığortanın obyektləri hesab olunurlar.

Kənd təsərrüfatına zərər vura bilən çox sayda gözlənilməz hadisələr, təbii və texnogen fəlakətlər vardır. Belə ki, kənd təsərrüfatı məhsulları yanğın, dolu, sel, daşqın, tufan, şaxta kimi təbii fəlakətlərin zərərlərindən, kənd təsərrüfatı heyvanları, ev quşları, arı ailələri müvafiq olaraq yoluxucu xəstəliklərdən və xüsusi təhlükəli ziyanvericilərin yayılmasından və hücumundan, kənd təsərrüfatı təyinatlı binalar, tikililər, qurğular, avadanlıqlar, maşınlar, nəqliyyat vasitələri isə qəza hadisələrindən sığortalanırlar.

Kənd təsərrüfatında əmlakın sığortası üzrə sığorta tarifləri sığorta hadisələri nəzərə alınmaqla sığortaçı tərəfindən müəyyən edilir. Əmlakını üç ildən az olmayaraq ardıcıl sığorta etdirmiş, lakin həmin müddətdə sığorta ödənişi almamış sığortalıya sonrakı illər üçün hesablanmış sığortahaqqından dördüncü ildən başlayaraq güzəştlər edilir.

Sığorta müqaviləsi üzrə sığorta məbləğləri kənd təsərrüfatı heyvanları, ev quşları, arı ailələri üzrə hüquqi şəxslərdə onların balans dəyərinin, fiziki şəxslərdə isə bazar qiymətinin azı 70 faizi, binalar, tikililər, qurğular, avadanlıqlar, maşınlar, nəqliyyat vasitələri və digər əmlak üzrə isə əmlakın bazar qiymətinin tam məbləği miqdarında müəyyən edilir. Göründüyü kimi, sığorta işi kənd təsərrüfatında məhsul istehsalçılarının iqtisadi maraqlarının təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Burada qarşıya qoyulan vəzifə isə ilk olaraq bitkiçilik və heyvandarlıq məhsulları istehsalçılarına təbii fəlakətlər zamanı onlara dəyə biləcək maddi zərərlərdən təminat verməkdir.

İlk olaraq bitkiçilik məhsulları istehsalındakı sığortaya baxsaq, görərik ki, mövcud qanunlara əsasən, istixanalar və onlarda yetişdirilən gül-bəzək, tingliklər, şitilliklər və çoxillik otların məhsulları istisna olunmaqla, kənd təsərrüfatı məhsulları istehsalçılarına məxsus olan bütün bitkilər və çoxillik əkmələrin məhsulları sığortaya cəlb edilirlər. Yuxarıda qeyd olunduğu kimi, əkinçilik məhsulları yanğın, dolu, sel, daşqın və şaxtavurma kimi gözlənilməz hadisələrdən tam məhv olduqda və ya bir hissəsi məhv olduqda bir hektarın əkin sahəsi məhsulunun dəyəri nəzərə alınmaqla məhsulun sığortalanma faizi miqdarında sığorta ödənişi verilir. Kənd təsərrüfatında sığorta etdirənlərin mənafeləri nəzərə alınaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarına əsasən, ölkəmizdə buğda, arpa, qarğıdalı, dən üçün günəbaxan, kartof, şəkər çuğunduru, tərəvəz, meyvə bağları, üzüm sahələrinin məhsulları yanğın, dolu, sel, daşqın, şaxta kimi hadisələrdən sığortalanır. Bu məhsullar üzrə bağlanılan sığorta müqavilələrində hesablanmış sığorta haqlarının 50 faizi dövlət büdcəsinin vəsaiti hesabına ödənilir. Həmçinin kənd təsərrüfatı sığortasının həyata keçirilməsinin qaydalarına uyğun olaraq kənd təsərrüfatı məhsullarının dəyərinin 5 faiz həcmində sığorta tarifi müəyyən olunur. Bu zaman kənd təsərrüfatı məhsulunun sığorta məbləği isə sığorta müqavilələrinin bağlandığı ildən əvvəlki dövrün orta məhsuldarlığı nəzərə alınmaqla və rayonun orta göstəricisi əsasında müəyyən edilir.

Kənd təsərrüfatı heyvanları üzrə sığortaya gəldikdə, burada 6 aylıqdan yuxarı iribuynuzlu mal-qara, qoyun və keçilər, habelə bir yaşdan yuxarı yük heyvanları, 3 aylıqdan yuxarı ev quşları və bir yaşdan yuxarı arı ailələri sığortaya cəlb olunurlar. Bundan başqa, broyler təsərrüfatlarında yetişdirilən quşlar da sığortaya cəlb edilir. Sığorta etdirilmiş kənd təsərrüfatı heyvanları yoluxucu xəstəliklərdən, yanğın, çovğun, dolu və ildırım vurmasından tələf olduqda onların sahibinə sığorta ödənişləri verilir. Heyvanların sığortası üzrə müqavilələr göstərilən yaşa çatmış həmin növdən olan bütün heyvanların balans dəyəri, yaxud bazar qiymətinin 50 faizdən az olmamaqla 80 faizədək məbləğdə bağlanılır.

Kənd təsərrüfatı məhsulunun və əmlakın sığortası könüllülük prinsipləri əsasında həyata keçirilir. Bu zaman sığortanın şərtləri və aparılması qaydaları qanunvericiliyə uyğun olaraq sığortaçı ilə sığortalı arasında bağlanan sığorta müqaviləsində müəyyən edilir. Kənd təsərrüfatının sığortası fermerlər və torpaq mülkiyyətçiləri üçün gözlənilməz hadisələrdən dəymiş zərərlərin əvəzinin ödənilməsi üçün yaxşı imkanlar vəd edir. Hazırda payızlıq taxıl əkinlərinin yekunlaşdırıldığı bir vaxtda bu daha da vacibdir. Belə ki, torpaq mülkiyyətçiləri öz əkinlərini dövlət sığorta orqanlarında sığorta etdirməklə qarşıdakı qış aylarında ola biləcək şaxtaların vurduğu, gələcəkdə dolu, sel, tufan və digər hadisələr nəticəsində dəyə biləcək zərərlərə qarşı sığorta təminatı ala bilərlər. Kənd təsərrüfatı məhsulları istehsalçıları əkdikləri payızlıq arpa və buğda məhsullarını ilin sonunadək sığorta etdirməklə işlərini zərərsiz başa vurmaq üçün tam təminat almış olurlar.

**Əli CABBAROV**

## İslam dini dəyərlərimizlə, dəyərlərimiz isə dinimizlə vəhdət təşkil edir

***Hər bir cəmiyyətdə milli və mənəvi dəyərlərin qorunması həmin cəmiyyətin inkişafı ilə mütləq şəkildə əlaqəlidir. Çünki hər bir xalq özünəməxsus dəyərlərin daşıyıcısıdır. Azərbaycan xalqı da tarixən öz milli, əxlaqi və mədəni dəyərləri ilə böyük inkişaf yolu keçib. Qədim Naxçıvan diyarı isə Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tarixən milli və mənəvi dəyərlərimizin qorunub saxlanılmasında mühüm rol oynayıb. Bəs bu gün milli mədəniyyətimizin mühüm dəyərlərini özündə yaşadan muxtar respublikamızda dini dəyərlərimiz necə təbliğ olunur? Bu və ya digər suallarla Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi Vüqar Babayevə müraciət etdik:***

***– Vüqar müəllim, İslam dini milli və mənəvi dəyərlərimizin inkişafında necə rol oynayır?***

– Bildiyiniz kimi, İslam dini humanist bir dindir və tarixən yayılmış bütün ərazilərdə aid olduğu xalqın milli və mənəvi dəyərlərinə hörmətlə yanaşıbdır. İslam dini böyük mənəvi dəyərləri özündə birləşdirir, insanların bir-biri ilə mehriban yaşamasını, daim təkmilləşməyi, öyrənməyi tövsiyə edir. Məsələ burasındadır ki, bizim milli dəyərlərimizin təməlində dayanan əsas meyarlar dinimizdə də öz əksini tapıb. Bu dəyərlərin kökü İslamdan xeyli əvvələ gedib çıxır. Məsələn, Novruz bayramı. Bildiyiniz kimi, bu bayramı xalqımız min illərdir, qeyd edir. Novruzun kökündə nə dayanır? Bu bayramda təbiət canlanır, küsülülər barışır, kimsəsizlər yada salınır, hər kəs bişirdiyi nemətləri yaxınları ilə paylaşır, böyüklərin görüşünə gedilir və sair. Diqqət edin, bütün bu hərəkətlərə İslam da böyük yer verir. Bəzən mənə Novruzla bağlı belə bir sual verilir: Bu bayramda od yandırılması Zərdüştlüklə əlaqəlidirmi? Bu suala yenə də cavab verməyi özümə borc bilirəm ki, Zərdüştlükdə oda sitayiş məsələsi yoxdur. Yalnız odun insanların həyatında rolu nəzərə alınaraq ona dəyər verilib. O ki qaldı Zərdüştlüyə, bu haqda İslamda müəyyən bilgilər var. İslamdan öncə yer üzünə xeyli sayda elçilər, yəni peyğəmbərlər göndərilib və Zərdüşt Peyğəmbər də onlardan biridir. Burada əsas məqamlardan biri Xeyirlə Şərin mübarizəsi, sonda birincinin qalib olmasıdır.

Göytürklərdən bəri biz təkallahlığı qəbul etmişik, bütlərə tapınmamışıq, heç kəsin haqqına toxunulmamasını istəmişik. Buna görə də biz İslamı dərin anlamla qəbul etdik və tarix də göstərir ki, İslamın yayılmasında, formalaşmasında və inkişafında türklərin böyük rolu olub. Bundan əlavə, bizim milli dəyərlərimiz sayılan böyüyə hörmət, qadına verilən böyük dəyər və sair İslam dini yarandıqdan sonra bu dində də öz əksini tapıb. Bu faktlar bizim xalqın nə qədər humanist dəyərlərə malik olduğunu sübut edir. Bütün bunlar onu göstərir ki, bizdəki dəyərlər İslamdan xeyli əvvəl var idi və bu din yayıldıqdan sonra dəyərlərimiz daha da kamilləşdi, daha geniş şəkildə təbliğ olunmağa başlandı. Bu gün ölkəmizdəki tolerantlığın əsas kökü də bizim dəyərlərimizdən qaynaqlanır. İslam dini isə bu dəyərlərimizin daha təkmil və kamil formalaşmasına öz təsirini göstərib. Bu mənada, İslam dini dəyərlərimizlə, dəyərlərimiz isə dinimizlə bir vəhdət təşkil edir.

***– İslam dininin üç əsas simvolu vardır ki, onlardan da birini məscidlər təşkil edir. Bu gün muxtar respublikada məscidlərimizin fəaliyyəti necə qurulub?***

– Əvvəlcə onu qeyd edim ki, məscidlər bir ibadət ocağı olmaqla yanaşı, həm də milli və mənəvi dəyərlərimizin təbliğ olunduğu yerlərdir. Hələ uzaq keçmişdən xalqımız məscidlərdən təkcə ibadət ocağı kimi deyil, həm də elm öyrənmək, vətənimiz üçün mühüm məsələləri müzakirə etmək və qərarlar vermək, birisinə yardım etmək və sair kimi məsələlərdə istifadə edib. Yetmiş il Sovetlər Birliyi dövründə məscidlərimiz tam fəaliyyət göstərə bilməsə də, müstəqilliyimizin bərpasından sonra bu istiqamətdə mühüm işlər görüldü. Naxçıvan Muxtar Respublikasında məscidlərimizin əsaslı şəkildə yenidən qurulması, yeni məscidlərin tikilməsi diqqət mərkəzində saxlanılan məsələlərdən biri olub. Məlumat üçün bildirim ki, hazırda muxtar respublikada 209 məscid fəaliyyət göstərir. Bu məscidlərdən 72-si yeni tikilib, 95 məscid və 23 pir isə yenidən qurulub və ya bərpa olunub. Fəaliyyətləri ilə bağlı onu deyə bilərəm ki, məscidlərimiz hər kəsin üzünə açıqdır və istər dini ayinlər, istərsə də dini bayramlarımız milli və mənəvi dəyərlərimizə, İslam ənənələrinə uyğun olaraq təşkil olunur və keçirilir.

***– Hər bir sahənin inkişafında, təbii ki, kadrların hazırlanması əsas vəzifələrdəndir. Bu gün dini sahədə mütəxəssis hazırlığı hansı səviyyədədir?***

– Əlbəttə, bu sahədə kadr hazırlığı daim diqqət mərkəzində olan məsələlərdəndir. Ancaq etiraf edək ki, hələlik bu istiqamətdə lazımi səviyyəyə gəlib çatmamışıq. Bu gün muxtar respublikada 680 din xadimi qeydiyyatdan keçib, ancaq diqqət etsək, görərik ki, onların böyük əksəriyyəti orta yaş və ondan yuxarı olanlardır. Doğrudur, dini biliklərinin artırılması məqsədilə qurumumuz tərəfindən din xadimləri təkmilləşdirmə kurslarına cəlb olunur, onlar üçün əyani vəsaitlər hazırlanıb paylanılır. Ancaq ilahiyyat üzrə ali təhsilli kadrlarımız hələ ki azlıq təşkil edir. Sevindiricidir ki, "Naxçıvan" Universitetində keçən il Dinşünaslıq ixtisası açılıb, yaxınlarda isə iki və dördillik kurslardan ibarət mədrəsənin açılacağı planlaşdırılıb. Bu tədbirlərdən sonra inanırıq ki, yaxın dörd-beş il ərzində ali təhsilli kadrlara olan ehtiyacımızı ödəyə biləcəyik.

***– Vüqar müəllim, muxtar respublikada ümumi dini durumu necə dəyərləndirərdiniz?***

– Muxtar respublikada multikultural dəyərlərə yüksək qiymət verilməsi, dövlət-din münasibətlərinin mövcud qanunvericilik çərçivəsində tənzimlənməsi bu sahədə kifayət qədər müsbət nəticələrin əldə edilməsinə imkan verib. Bu gün muxtar respublikada 11 dini icma fəaliyyət göstərir. Dini Qurumlarla İş üzrə İdarə tərəfindən bu icmaların fəaliyyətinə daim nəzarət olunur. Bundan əlavə, iki il bundan əvvəl Naxçıvan şəhəri də daxil olmaqla bütün rayonlarda multikulturalizm komissiyaları yaradılıb. Vaxtaşırı olaraq bu komissiyalar tərəfindən müxtəlif mövzularda tədbirlər təşkil edilir. Gənc nəslin maarifləndirilməsi baxımından həm dini icmalar, həm də adıçəkilən komissiyalar tərəfindən keçirilən tədbirlərin mahiyyəti tərəfimizdən müzakirə olunur. Bununla yanaşı, məscidlərdə təmizliyin saxlanılması, qəbiristanlıqlarda yerli icra nümayəndəlikləri ilə birlikdə iməciliklərin təşkil olunması, yas mərasimlərinin qəbul edilmiş qaydalar əsasında keçirilməsi və digər bu kimi tədbirlər diqqət mərkəzində saxlanılır. Görülən işlərin nəticəsidir ki, bu gün muxtar respublikamızda fəaliyyət göstərən məscidlərdən aidiyyəti üzrə istifadə edilir, dini ayrı-seçkiliyə, radikal və dini nifrət yayan cərəyanların təbliğinə yol verilmir. Yeri düşmüşkən onu da vurğulayım ki, insanların dini maariflənməsində dini ədəbiyyatlar böyük rol oynayır. Heç kəsə sirr deyil ki, ölkəmizə gətirilən dini ədəbiyyatların əksəriyyəti müxtəlif dini cərəyanların və radikal təriqətlərin yayılması məqsədi daşıyır. Bu məqsədlə də lazımi tədbirlər görülür. Belə ki, dini təyinatlı ədəbiyyatların, əşya və dini məzmunlu digər məlumat materiallarının muxtar respublika ərazisində yayılmasına nəzarətin həyata keçirilməsi məqsədilə ixtisaslaşdırılmış satış məntəqələri yaradılıb. Nəticədə, dövlətçiliyimizə zidd olan, məzhəb ayrı-seçkiliyi salan və ifrat məzhəbçiliyi təbliğ edən ədəbiyyat və əşyaların muxtar respublika ərazisində yayılmasının qarşısı alınıb.

***– Bildiyiniz kimi, 2009-cu ilin oktyabrında Bakıda keçirilən İslam Konfransına üzv ölkələrin mədəniyyət nazirlərinin 6-cı toplantısı çərçivəsində Naxçıvan şəhəri İslam Mədəniyyətinin Paytaxtı elan olunub. Fikrinizcə, Naxçıvan bu mədəni statusdan yararlanaraq İslam dünyasına hansı töhfələri verə bilər?***

– Təbii ki, elmin, ədalətin, ümumilikdə isə inkişafın qoruyucusuna çevrilən İslam mədəniyyəti müsəlman dünyasında istiqamətverici qüvvə olub. Qədim Azərbaycan mədəniyyəti isə İslam mədəniyyətinin bir hissəsinə çevrilib.

Müasir qloballaşma dövründə isə mədəniyyətlərarası dialoq, mədəni inteqrasiya daha irəli gedərək nəinki bir-birini tanıma, eyni zamanda dünya siyasətində söz sahibi olma baxımından böyük rola malikdir. Hazırda bu məqsədlə keçirilən tədbirləri daha sistemli təşkil etmək və xalqlar arasında əlaqələri mədəniyyətlər vasitəsilə inkişaf etdirmək məqsədilə bir çox layihələr həyata keçirilir ki, onlardan biri də "İslam Mədəniyyətinin Paytaxtı" layihəsidir. Naxçıvanın bu layihəyə təqdim edəcək mühüm potensialı var. Bu potensial, əsasən, özünü tarixi, mədəni və dini aspektlərdə göstərir. Diqqət edək, Naxçıvanın tarixi bəşər tarixinin özü qədər qədimdir, elə təkcə şəhər mədəniyyətinin yaşı 5000 ilə gedib çıxır. 5000 illik şəhər mədəniyyətinə malik bir ərazi isə tarixi abidələr baxımından kasad ola bilməz, hansı ki biz bu gün Naxçıvanın hər qarışında bu abidələrlə qarşılaşırıq. Naxçıvanda tarixi və mədəni abidələrə olan yanaşma haqqında isə danışmaq azdır, bunu, sadəcə, görmək lazımdır. Və nəhayət, dini baxımdan Naxçıvanın özünəməxsusluğu var. Müqəddəs "Qurani-Kərim"də adıçəkilən Əshabi-Kəhf mağarasının burada olması, muxtar respublika ərazisində imamzadələrin, pirlərin mövcudluğu dini baxımdan Naxçıvanın əhəmiyyətini xeyli artırır. Məsələnin digər tərəfi ondan ibarətdir ki, bizim milli mədəniyyətimizi əsrlərlə özündə yaşadan tarixi abidələrimizin üzərindəki dini yazılar da tarixən Naxçıvanın İslam aləmində hansı yeri tutduğundan xəbər verir. Bütün bu tərəfləri ilə Naxçıvanın İslam dünyasında, eləcə də Yaxın Şərqdə geniş təbliği üçün böyük imkanlar açılır. İnanırıq ki, belə mötəbər bir tədbirin keçirilməsinə Naxçıvanın ev sahibliyi etməsi qədim diyarımızın tarixi, mədəni, eyni zamanda turizm və iqtisadi baxımdan perspektivlərini ortaya qoyacaq. Son illər Naxçıvanda bu sahədə həyata keçirilən tədbirlər – məscidlərin tikilməsi və bərpası, tarixi abidələrin bərpası, müasir turizm infrastrukturunun yaradılması onu deməyə əsas verir ki, 2018-ci ildə keçiriləcək tədbirə Naxçıvan indidən artıq tam hazırdır.

***– Müsahibə üçün sağ olun.***

**Səbuhi HƏSƏNOV**

*Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin iştirakı ilə "Naxçıvanın dini turizm potensialı" mövzusunda maarifləndirici tədbir keçirilib.*

## Xarici ölkə vətəndaşları Əshabi-Kəhf ziyarətgahında olublar



Tədbiri giriş sözü ilə xidmətin əməkdaşı Nurlan Tağıyev açaraq bildirib ki, Naxçıvanda dini turizmin inkişafı istiqamətində görülən işlər, dini-mədəni abidələrin bərpası və qorunması, təşkil olunan turizm marşrutları dini dəyərlərimizin dünyaya tanıdılmasında vasitə rolunu oynayır. Qədim inancları, möcüzəvi sirləri və əfsanələri özündə yaşadan "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi dünyanın dörd bir yanından gələn zəvvarların ziyarətgahına çevrilib.

Görüşdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri Əkbər Novruzov çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikasının geniş turizm potensialı vardır. Bu sırada Əshabi-Kəhf ziyarətgahı xüsusi yerə malikdir. Daş mağarada haqqın ədalətinə sığınıb ondan mərhəmət gözləyənlər kimi, sonsuzluq qavramını da kainatın dərinliklərində deyil, elə yaşadığı şəhərin lap yaxınlığındakı təbiət möcüzəsində axtaranlar üçün qədim Naxçıvanın müqəddəs məkanları, onun Əshabi-Kəhf ziyarətgahı hamının axtardığı bir yerdir.

Tədbirdən sonra əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksinə ekskursiyası təşkil edilib. Burada onlara məlumat verilib ki, Əshabi-Kəhf barədə "Qurani-Kərim"in 18-ci surəsində ("Əl-Kəhf" - "Mağara") bəhs edilir. "Əshabi-Kəhf" kimi tanınan mağaralar Kiçik Asiya və Fələstinin, Türkiyənin ərazisində də var. Lakin "Qurani-Kərim"də göstərilən bir çox məlumatlar, xalq arasında mövcud olan rəvayətlər və bəzi tarixi faktlar müqəddəs kitabda haqqında bəhs edilən yerin məhz Naxçıvandakı Əshabi-Kəhf olduğunu aydınlaşdırır. Burada coğrafi cəhət oxşarlığı xüsusilə diqqəti cəlb edir. Bu məsələ "Qurani-Kərim"in 18-ci surəsinin 17-ci ayəsində belə açıqlanır: "Baxsaydın, Günəşin mağaranın sağ tərəfindən doğub meyil etdiyini, sol tərəfdən onlara toxunmadan batdığını, onların da mağaranın genişcə bir yerində olduqlarını görərdin..." Mağaranın içərisinə girəcəkdən baxarkən (yəni girişdən sağ və sol nəzərdə tutulur), məhz Naxçıvandakı Əshabi-Kəhfdə içəri girən (baxan) adamın sağı (bu nisbətdə mağaranın sağ tərəfi) gündoğana düşür.

Ekskursiyadan sonra bir neçə ziyarətçi ilə də görüşüb söhbət etdik. Türkiyəli tələbələrdən Özlem Nefis, Nurten Ezgi Ceylan, Doğan Özdemir, Merve Akkuş, Orhan Polat, Ekrem Dutka, Halil İbrahim Dursun, Muhammet Ali Kement və başqaları söhbət zamanı bildirdilər ki, Naxçıvan Azərbaycanın tarixini, mədəniyyətini dünyaya təqdim etmək üçün ideal məkandır. Ekskursiya zamanı öyrəndik ki, burada baş verən hadisə İslam dininin yayılmasından xeyli əvvəl olub. Bu da onu deməyə əsas verir ki, Əshabi-Kəhf ziyarətgahı, əslində, dünyadakı bütün din mənsublarının ziyarətə gələ biləcəyi bir yerdir. Bu məkanın çox gözəl aurası var. Burada mağaradakı divara niyyət tutub daş yapışdırdıq, "Cənnət bağı"na çıxaraq daşları üst-üstə qoyduq, niyyət edib damcı düşməyini gözlədik. Bütün bunlar çox maraqlı idi. Ekskursiya yüksək səviyyədə təşkil olunmuşdu. Belə tədbirlərin tez- tez təşkil edilməsini arzulayırıq.

İran İslam Respublikasının Təbriz şəhərindən olan tələbə Rza Əlizadə, Nigeriyadan olan Yusif Abdullahi isə bildirdilər ki, Əshabi-Kəhfi ziyarət etməkdən böyük sevinc hissləri keçirirlər. Ziyarətgahda təmizliyə ciddi riayət olunması çox diqqətçəkicidir. Bu müqəddəs ziyarətgaha gəldikləri üçün ən savab işlərdən onlara da pay düşdüyünə inanırlar. Bütün bunlara görə tədbirin təşkilatçılarına minnətdardırlar.

**Səbuhi HÜSEYNOV**

## Genişmiqyaslı dezinfeksiya və maarifləndirmə tədbirləri aparılır

***Təbiət hadisələrinə uyğun olaraq payızın gəlməsi ilə optimal şərait yarandığına görə kəskin respirator virus xəstəliklərinin sayında artım müşahidə edilir. Xəstəlik yuxarı tənəffüs orqanlarının iltihabı və ya infeksiyası nəticəsində baş verir, bakterial və virus mənşəli olur. Bu isə xəstəliyin daşıyıcılarına qarşı genişmiqyaslı profilaktik tədbirlərin aparılmasını labüd edir.***

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq kəskin respirator infeksion xəstəliklərinin profilaktikası məqsədilə payız mövsümündə gücləndirilmiş dezinfeksiya və maarifləndirmə tədbirləri aparılır. Cari mövsümün tədbirlərinə noyabr ayının əvvəlindən start verilib. Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzi, onun rayon təşkilatları tərəfindən icra olunan bu tədbir, ilk növbədə, əhalinin sıx məskunlaşdığı yerləri əhatə edir.

Ötən həftə ərzində Naxçıvan şəhər avtovağzalında 1240 kvadratmetr, dəmiryol vağzalında 2 min 500 kvadratmetr, "Cahan" ticarət mərkəzində 3 min 200 kvadratmetr dezinfeksiya işləri həyata keçirilib. Bundan əlavə, Naxçıvan şəhəri ərazisində yerləşən məktəb və bağçalarda mərkəzin əməkdaşları tərəfindən maarifləndirici tədbirlər aparılıb, həmin müəssisələr dezinfeksiyaedicilərlə təmin olunub.

Dezinfeksiya tədbirləri mövsüm ərzində davam etdiriləcək.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Naxçıvan çayları:
## regionumuzun həyat mənbəyi

***Su təbiətdə ən faydalı və əvəzolunmaz nemətdir. Onsuz həyatın davamı, sadəcə, mümkün deyil. Bütün yeraltı və yerüstü sərvətlərdən əhəmiyyətli olan su, digər təbii ehtiyatlardan ona görə ucuzdur ki, təbiətdə geniş yayılıb. Elə bu səbəbdəndir ki, Yer kürəsinin dörddə üçünü su ehtiyatları təşkil edir. Ancaq bu ehtiyatlar təbiətdə müxtəlif formalarda mövcuddur. Okeanlar, dənizlər, göllər və çayların bir-birindən fərqi, əsasən, onların su tutumuna görədir. Adıçəkilən su mənbələrindən yalnız çaylardır ki, onlar böyük su ehtiyatlarının əsas təminatçıları hesab edilir. Çaylar əkin sahələrinin suvarılmasında, gəmiçiliyin, balıqçılığın inkişafında, elektrik enerjisi istehsalında əhəmiyyətli rol oynayırlar. Əgər çaylar olmasaydı, onda böyük su mənbələrinin mövcudluğu da sual altında olar, kənd təsərrüfatı iflic vəziyyətinə düşər, beləliklə, təbiətin nizamı pozulardı. Buna görə də çaylar təbiətdə müstəsna əhəmiyyətə malik hidroloji obyektlərdir.***



Məlumat üçün bildirək ki, muxtar respublika ərazisində, təqribən, 400 böyük və kiçik çay var. Onlardan 334-nün uzunluğu 5 kilometrədək, 31-i 6-10 kilometr, 24-ü 11-25 kilometr, 7-si 26-50 kilometr, 3-ü 51-100 kilometrdir.

Muxtar respublika ərazisindən axan çaylar, əsasən, az sulu, kiçik çaylardır. Bu çaylar içərisində ən böyüyü digər ölkələrin ərazisindən keçməklə muxtar respublikanın cənub sərhədləri boyunca axan Araz çayıdır. Mənbələrdə “Araz” adının yaranma tarixi eradan əvvəl III-I əsrlərə aid edilir. Bir çox antik və orta əsr müəlliflərinin əsərlərində bu çayın adı çəkilir. Suyunun çoxluğuna görə Cənubi Qafqazda ikinci çay olan Arazın uzunluğu 1072 kilometrdir və başlanğıcını Türkiyə Respublikasının Bingöl silsiləsinin yamaclarından götürür. Çay vadisində aşkar edilmiş arxeoloji abidələr, həmçinin digər materiallar burada qədim yaşayış məskənləri, ticarət, sənətkarlıq və mədəniyyət mərkəzləri olduğunu sübut edir. 11 və 15 aşırımlı Xudafərin körpüləri kimi nadir tikililər Naxçıvan memarlıq məktəbinin Arazboyu abidələrindəndir.

Arazın ölkəmiz, eləcə də muxtar respublikamız üçün böyük suvarma və hidroenerji əhəmiyyəti vardır. Hələ ötən əsrin 70-ci illərində tikilən Araz Su Elektrik Stansiyası enerjiyə olan tələbatın ödənilməsinə öz töhfəsini vermişdir. Həmin əsrin 90-cı illərinin əvvəllərində isə ulu öndər Heydər Əliyevin yorulmaz fəaliyyəti və şəxsi nüfuzu sayəsində qonşu dövlətlərdən elektrik enerjisi alınmasını təmin etmək üçün təcili tədbirlər həyata keçirilmişdir ki, bu tədbirlərdən biri də İran İslam Respublikasından elektrik enerjisinin alınması üçün Araz Su Elektrik Stansiyasının ərazisində 132/110/10 kilovoltluq 40 meqavolt-amper güclü “Araz” yarımstansiyasının tikilib quraşdırılması idi. Bundan sonra 132 kilovoltluq Araz-Araz elektrik verilişi xətti çəkilmiş və 1992-ci il dekabr ayının 3-də istismara verilmişdir ki, bu da qonşu dövlətdən 30 meqavat gücündə elektrik enerjisi almağa imkan vermişdir.

Hazırda Ordubad rayonu ərazisində Araz çayı üzərində gücü 36 meqavat, illik elektrik enerji istehsalı 190 milyon kilovat-saat olacaq derivasiyatipli Ordubad Su Elektrik Stansiyasında tikinti işləri davam etdirilir.

Araz çayı üç dövlətin ərazisindən axır. Qafqaz ekoregionunda transsərhəd çayı boyunca yaradılmış ilk xüsusi mühafizə olunan təbiət ərazisi də Arazın muxtar respublikadan axan hissəsindədir. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 23 sentyabr tarixli Sərəncamı ilə Araz çayının və dəryaçasının muxtar respublika hüdudlarına aid hissəsində ümumi ərazisi 9118 hektar olan hidroloji, bioloji və paleontoloji əhəmiyyətli “Arazboyu” Dövlət Təbiət Yasaqlığı yaradılmışdır. Arazboyu qurşaq 1700 kvadratkilometr olmaqla muxtar respublika ərazisinin 32 faizini təşkil edir. Məhz bunun nəticəsidir ki, Azərbaycan Respublikası ərazisində yayılmış 8 dəstə, 20 fəsilə və 55 cinsə mənsub olan 102 məməli heyvan növünün 62-si muxtar respublika ərazisində məskunlaşıb. Bunun da böyük əksəriyyəti Arazboyu ərazilərdə yayılıb. Hazırda Araz çayı muxtar respublikada əkinçiliyin, balıqçılığın və enerji istehsalının təmin olunmasında böyük rol oynayır.

Muxtar respublikada əhəmiyyəti ilə seçilən digər çay isə Arazın sol qolu olan Arpaçaydır. “Şərurun incisi” sayılan Arpaçay öz başlanğıcını qədim türk yerləri olan Soğanlı, Bətdərə kimi obalarımızdan götürür. Bu gün həmin yurd yerləri yad əllərdə olsa da, Arpaçay heç bir səddə baxmayaraq aşıb-daşır, Şərurun, Sədərəyin, Kəngərlinin tarlalarını su ilə təmin edir. Şəninə mahnılar bəstələnən, şeirlər qoşulan Arpaçayın uzunluğu 126 kilometrdir. Hələ sovet dövründən suvarmada geniş istifadə olunan Arpaçayın suyu Araza çatmırdı. Məhz ümummilli lider Heydər Əliyevin səyi nəticəsində 1977-ci ildə çayın üzərində su anbarı tikildi ki, bu da digər əkin sahələrinin suvarılmasına imkan verdi. Yeri düşmüşkən bir faktı da qeyd edək ki, tarixin bütün dövrlərində bizə qənim kəsilmiş ermənilər Naxçıvanın sosial-iqtisadi inkişafına zərbə vurmaq niyyəti ilə 1980-ci ildə Arpaçayın suyunu Göyçə gölünə axıtmaq üçün uzunluğu 48,6 kilometr olan tunel çəkmişdilər. O zaman Şərur rayonunda kəskin su qıtlığı yaranmışdı və bu vəziyyət ərazinin ekologiyasına da ciddi təsir göstərmişdi. Müstəqilliyimizin bərpasından sonrakı dövrdə isə muxtar respublikada bütün sahələrdə həyata keçirilən islahatlardan Arpaçaya da böyük pay düşmüşdür. İndi Arpaçay Su Anbarı Azərbaycanda iri irriqasiya qurğularındandır. 2014-cü ildə çayın üzərində 20,5 meqavat gücündə “Arpaçay-1” və 1,4 meqavat gücündə “Arpaçay-2” Su Elektrik stansiyaları fəaliyyətə başlamışdır. Su anbarının kənarında ictimai iaşə müəssisələri yaradılmış, əhalinin rahatlığı təmin edilmişdir. Bir məsələni də qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 22 iyun 2009-cu il tarixli Sərəncamı ilə ümumi ərazisi 68911,18 hektar olan “Arpaçay” Dövlət Təbiət Yasaqlığı yaradılmışdır. Bu addım təbiətə göstərilən qayğı sayılmaqla yanaşı, həm də Arpaçayın mühafizəsi üçün mühüm əhəmiyyət kəsb edir.

Arpaçaydan sonra böyüklüyünə görə fərqlənən Naxçıvançaydır. Qədim adı Qarababaçay olan Naxçıvançayın uzunluğu 81 kilometrdir. Çayın mənbəyi dəniz səviyyəsindən 3118 metr hündürlükdə olan Keçəldağdan, eləcə də Ağdaban və Qonaqgörməz dağlarından başlayır. Çayın ən böyük qolu Cəhri çayıdır. Hövzəsində Uzunoba və Sirab Su anbarları yaradılmışdır.

Muxtar respublika ərazisində uzunluğuna görə seçilən çaylardan biri də Əlincəçaydır. Uzunluğu 62 kilometr olan bu çay başlanğıcını Zəngəzur silsiləsindəki Dəmirli dağın yamacından götürür. Çay Xəznədərə və Ləkətağsu çaylarının birləşməsindən əmələ gəlir. Culfa rayonundakı kəndlərin böyük əksəriyyəti bu çay boyunca yerləşir. Gülüstan kəndi yaxınlığında isə Əlincəçay Araza tökülür.

Naxçıvan ərazisindəki çayların uzunluğuna görə növbəti ardıcıllığı isə belədir: Gilançay (53 kilometr), Bağırsaqdərə (Şərur rayonu ərazisində Arazın sol qolu, 33 kilometr), Düylünçay (30 kilometr), Vənəndçay (29 kilometr), Parağaçay (21 kilometr), Küküçay (20 kilometr), Ordubadçay (19 kilometr). Qeyd edək ki, 2010-cu ildə Gilançay üzərində 22 meqavat gücündə Biləv Su Elektrik Stansiyası istismara verilmişdir ki, bu da muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunmasına öz töhfəsini verməkdədir.

Yuxarıda adıçəkilən çayların hər biri haqqında ayrıca bəhs etmək mümkündür. Ancaq ümumilikdə götürsək, muxtar respublika ərazisindəki çayların yaranma tarixi elə Naxçıvanın tarixi qədər qədimdir. Bu çayların bir-biri ilə uyğunluq təşkil edən xüsusiyyətləri ondan ibarətdir ki, onların hamısı yeraltı və yağış suları ilə qidalanır, az suludur, əsasən, suvarmada istifadə olunur. Suyu bol olan çaylardan isə elektrik enerjisi istehsalında, o cümlədən balıqçılığın inkişaf etdirilməsində istifadə olunur. Bu çayların keçdiyi ərazilər, xüsusilə çay vadiləri çox qədim zamanlardan yerli sakinlərin yurd yeri kimi formalaşıb. Aparılmış arxeoloji qazıntılar çay vadilərində çoxsaylı arxeoloji abidələrin olduğunu aşkara çıxarıb. Deməli, regionumuzdakı çaylar yaşı minilliklərlə ölçülən Naxçıvanda ilkin yaşayış məskənlərinin, eləcə də ibtidai mədəniyyətin formalaşmasında əsaslı rol oynayıb. Naxçıvan çayları təbiətin bizə bəxş etdiyi nemət olmaqla həm də regionumuzun həyat mənbəyidir.

**Səbuhi HƏSƏNOV**

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Paralimpiya Federasiyasının birgə təşkilatçılığı ilə paralimpiyaçılar arasında futzal üzrə muxtar respublika birinciliyinə start verilib.*

## Paralimpiyaçılar arasında futzal turnirinə start verilib



Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25 illiyinə həsr olunmuş birincilikdə “Naxçıvan”, “Şərur”, “Sədərək”, “Kəngərli”, “Şahbuz”, “Babək”, “Culfa” və “Ordubad” komandaları mübarizə aparırlar.

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən yarışın açılış mərasimində çıxış edən Paralimpiya Federasiyasının sədri Cavid Səfərov idmançılara uğurlar arzulayıb. Muxtar respublikada idmanın kütləviliyindən danışan federasiya sədri bildirib ki, bu gün Naxçıvanda bütün sahələrə olduğu kimi, idmana da xüsusi diqqət və qayğı göstərilir. Bunun nəticəsidir ki, bu gün idmançılarımız keçirilən bütün yarışlarda iştirak edir və uğur qazanırlar. Muxtar respublikada məhdud fiziki imkanlı insanların idmana cəlbi hər zaman diqqətdə saxlanılır. Keçirilən futzal turniri də bunun ifadəsidir.

Sonra görüşlərə start verilib. Olimpiya sistemi üzrə keçirilən birincilik iki gün davam edəcək və bu gün keçiriləcək final görüşü ilə yarışa yekun vurulacaq.

**Ceyhun MƏMMƏDOV**

## Ustad dərsləri davam etdirilir



***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Ordubad Rayon Uşaq Musiqi Məktəbində rayonun uşaq musiqi məktəblərinin müəllim və şagirdləri üçün ustad dərsləri keçilib.***

Dərslər başlanmazdan əvvəl Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Leyla Əlimərdanova bildirib ki, bu dərslərin keçilməsində əsas məqsəd tədrisin keyfiyyətinin yüksəldilməsinə, şagirdlərin bacarıq və qabiliyyətlərinin inkişaf etdirilməsinə nail olmaqdır.

Sonra muxtar respublikanın tanınmış müəllim və musiqiçilərindən vokal ixtisası üzrə Azərbaycan Respublikasının Əməkdar artisti Tural Nəcəfov, qarmon ixtisası üzrə Naxçıvan şəhərindəki Səfər Rəcəbov adına 3 nömrəli Uşaq Musiqi Məktəbinin müəllimi Bəhruz Xəlilov, fortepiano ixtisası üzrə Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Nərminə Qədimova, skripka ixtisası üzrə Naxçıvan Musiqi Kollecinin müəllimi İlahə Əliyeva, klarnet ixtisası üzrə Naxçıvan Şəhər 2 nömrəli Uşaq Musiqi Məktəbinin direktoru Səməd Əsgərov müəllim və şagirdlərə ustad dərsi keçiblər.

Azərbaycan Respublikasının Əməkdar artisti Tural Nəcəfov bildirib ki, müəllim tədris prosesində şagirdə yalnız elmi bilikləri deyil, təcrübə vərdişlərini də aşılamalı, onların dünyagörüşünü formalaşdırmalı, şagirdlərin psixoloji, vokal, fiziki və digər fərdi xüsusiyyətlərini nəzərə alaraq onlara yaradıcı mövqedən yanaşmalıdır.

Qarmon ixtisası üzrə ustad dərsi keçən təcrübəli müəllim Bəhruz Xəlilov ustad dərsdə qarmon alətinin tarixi haqqında ətraflı məlumat verib.

Fortepiano ixtisası üzrə ustad dərsi aparan Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Nərminə Qədimova bildirib ki, tədris prosesində əsərlərin ifası zamanı intonasiya, fraza, fikir, obraz, dramaturgiya və başqa bədii ifadə vasitələrini düzgün yerinə yetirmək lazımdır. Pianoçular həm də ifa etdikləri musiqilərin janrları, üslublarına bələd olmalıdırlar.

Skripka ixtisası üzrə ustad dərsi keçən İlahə Əliyeva isə deyib ki, bu dərslərin tədrisi zamanı şagirdlərin kollektiv və ya fərdi ifaya üstünlük vermələri də nəzərə alınmalıdır. Şagird əsərləri forma, üslub və ifaçılıq baxımından təhlil etməyi bacarmalı, notu üzdən oxuma səviyyəsi isə tələb edilən normada olmalıdır.

Klarnet ixtisası üzrə ustad dərsində Səməd Əsgərov bu nəfəs musiqi alətinin yaradıcılıq imkanlarını izah etdikdən sonra klarnetdə ifa edilən musiqi əsərləri haqqında geniş məlumat verərək bildirib ki, klarnetin özünəməxsus texnikası və təcrübəsi şagirdlərə düzgün aşılanmalıdır. Klarnet ixtisası üzrə təhsil alan şagirdlərə Avropa, rus, Azərbaycan və digər ölkələrin bəstəkarlarının bu musiqi aləti üçün yazdığı əsərlər haqqında da məlumat vermək lazımdır.

Ustad dərsləri başa çatdıqdan sonra müəllim və şagirdləri maraqlandıran suallar cavablandırılıb.

**Əli RZAYEV**

## “Naxçıvan Tikinti Materialları” Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə!

19 yanvar 2017-ci il tarixdə saat $11^{00}$-da “Naxçıvan Tikinti Materialları” ASC-nin növbəti ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdə duran məsələlər:

*1. Reqlamentin təsdiqi*

*2. Cəmiyyətin direktorlar şurasının və idarə heyətinin seçilməsi*

*3. Digər məsələlər.*

Ümumi yığıncaq Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 7 ünvanında keçiriləcəkdir.

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 897